# Dostoyevskini sevmək olarmı?



■ Məmməd Qocayev
*professor*

***(Əvvəli ötən sayımızda)***

Odur ki, insan yalnız özünü, öz ruhunu təkmilləşdirməyə qadirdir. Əgər bu baş verərsə, onda insanın Allahın yaratmış olduğu dünyaya münasibəti də dəyişər, o, həyatı və dünyanı özünə deyil, özünü həyata və dünyaya uyğunlaşdırar. Dünya isə Allahın qoyduğu qanun əsasında öz inkişafında olacaqdır. Buna görə də Dostoyevskinin yaratdığı insan dünyanın tacı, onun ağası deyil, olsa-olsa onun tərkib hissəsidir. O, dünyanı deyil, dünya onu dəyişdirir. İnsanın öz səlahiyyətlərini aşması, Allahın işinə qarışması isə bir hal olaraq onu faciələrə və iflasa gətirib çıxarır.

Dünyaya və insana, insan-dünya, insan-Allah münasibətlərinə bu cür baxış Dostoyevski romanlarının janr xüsusiyyətlərində və üslubunda da özünü göstərir. Onlar bir növ dini kitablara bənzəyirlər: zahirən mücərrəd, daxilən sonsuz qədər məna-lı-məzmunlu görünürlər. Dostoyevski romanları sanki insan əlilə, insan iradəsilə deyil, haqdan yaranmışdır və yazıçının əməyi yalnız ondan ibarət olmuşdur ki, haqdan gələn, həyatdan və milli ruhdan gələn sədaları doğru-düzgün tutub onları vərəqə köçürsün. Ona görə də Dostoyevski romanları forma və məzmun baxımından qeyri-adi əsərlər təəssüratı bağışlayır və onları dərk etmək üçün adi, dünyəvi, sosial, məntiqi təfəkkür kifayət etmir. Dostoyevski yaradıcılığında adi təfəkkürə və məntiqə sığan heç nə yoxdur, çünki insan və həyat özləri də məntiqə və təfəkkürə sığmır. Onları ilahi bir xilqət kimi dərk etmək üçün başqa bir yanaşma forması tələb olunur, necə ki dünyanı olduğu kimi dərk etməkdən ötrü Evklid həndəsəsi deyil, Eynşteynin nisbilik nəzəriyyəsi lazım gəlir. Eynşteynin fizikada etdiyi çevrilişi Dostoyevski ondan qabaq ədəbiyyatda və mənəviyyatda etmişdir. Ona görə də Eynşteyn Dostoyevskini çox yüksək qiymətləndirir və hesab edirdi ki, Dostoyevski ona, XX əsrin dahi fizikinə, hamıdan, hətta Qaussdan da çox şey vermişdir. Əgər nəzərə alsaq ki, Qauss və Lobaçevski öz əsərlərində bir növ gələcək nisbilik nəzəriyyəsinin rüşeymlərini yaratmışdılar, onda Dostoyevskinin Eynşteyn üçün Qaussdan yüksək olmasının nə demək olduğunu anlamaq olar. Eynşteyn kimi Dostoyevski də dünyaya fərqli bir hesablama sistemindən baxmışdır, ona görə də dünya ona başqa cür (yəni, əslində olduğu kimi) görünmüşdür. Amma əgər insanlar, oxucular bu həqiqəti dərk edə bilmir və Dostoyevski realizminin əsl realizm, Dostoyevski həqiqətlərinin əsl həqiqət olduğunu dərk edə bilmirlərsə, bu, yalnız o deməkdir ki, onlar dünyaya köhnə baxışdan ayrıla bilmirlər. Bu ona bənzəyir ki, insanlar Günəşin çıxmağı və batmağını heç cür Yerin öz oxu ətrafında fırlanması ilə izah edə bilmirlər və əvvəlki kimi hesab edirlər ki, Günəş Yerin ətrafında fırlanır.

Dostoyevski realizminin yeni tipli realizm olmasını dərk etmədən onun əsərlərinin dərin məzmununa və gizli həqiqətlərinə yetmək mümkün deyil. Dostoyevski realizmi adi psixologiyanın qanunlarını da pozur, lakin əsl psixologiyanın, yəni dərinlik psixologiyasının qanunları burda nəinki pozulmur, hətta onlar elmdə öz təsdiqini tapınca, elmdə kəşf olunana qədər Dostoyevski bədii yaradıcılığında kəşf olunmuşdu. Bu mənada Dostoyevskinin paradoks kimi səslənən aşağıdakı fikrində çox böyük bir həqiqət vardır. O yazırdı: "Məni psixoloq adlandırırlar. Bu, belə deyil. Mən psixoloq deyiləm, sözün əsl mənasında realistəm, çünki insan qəlbinin bütün dərinliklərini təsvir edirəm". Buradan ortaya belə bir sual çıxır: məgər insan qəlbinin dərinliklərini təsvir etmək psixoloq-yazıçı olmaq demək deyilmi? Buradakı anlaşılmazlıq ondan irəli gəlir ki, Dostoyevskinin "mən psixoloq deyiləm" sözlərinin deyildiyi zamanda, yəni XIX əsrin ortalarında dərinlik psixologiyası deyilən elm hələ mövcud deyildi. Onu sonralar, XIX əsrin ikinci yarısında Ziqmund Freyd kəşf edəcəkdir. Bu, şüursuzluq psixologiyası, ya da təhtəlşüur psixologiyasıdır. Məhz bu mənada, yəni təhtəlşüur psixologiyasının təsviri mənasında Dostoyevski psixoloqdur. Amma Dostoyevski özünü, deyək ki, Pavlov psixologiyasına aid etmək istəmirdi, çünki bu psixologiya insan ruhunda baş verənlərin cüzi bir hissəsini, əsasən də üzdə olanları əhatə edirdi. Dostoyevskinin realizmi isə daha dərinə, təhtəlşüura nüfuz edirdi ki, bunu da yazıçı insan qəlbinin dərinlikləri adlandırırdı. Deməli, dərinlik psixologiyası Z.Freydə qədər Dostoyevski tərəfindən kəşf edilmişdir. Ona görə də psixoanalizin yaradıcısı Dostoyevski yaradıcılığına, xüsusən də onun "Karamazov qardaşları" romanına böyük maraq göstərmiş və hətta "Dostoyevski və ata qətli" adlı məqalə də yazmışdır.

Amma burada onu deməyi lazım bilirəm ki, Dostoyevski psixologizmi freydizmdən çox yunqçuluğa daha yaxındır. K.Yunqun analitik psixologiyası, onun arxetiplər nəzəriyyəsi Dostoyevski psixologizmini anlamaq üçün daha münasib bir açar rolunu oynaya bilər. Freyd fərdi təhtəlşüuru, Yunq isə kollektiv təhtəlşüuru kəşf etmişlər. Freydin fikrincə, təhtəlşüurda olan bütün şeylər nə vaxtsa fərdin şüurunda olmuşdur ki, bunlar da nə səbəbdənsə qəbul edilməmiş və şüurdan sıxışdırılıb çıxarılmışdır. Freydin əməyi ondadır ki, o, ilk dəfə olaraq qeyd etmişdir ki, şüurdan sıxışdırılıb çıxarılmış psixoloji hallar itmir, yox olmur, sadəcə olaraq təhtəlşüura enir və orada ilişib qalır. Lakin fərdin bundan xəbəri olmur. Bu, onun üçün yox kimi bir şeydir. Amma təhtəlşüurdakı bu psixoloji hallar insanın özünün də xəbəri olmadan onun ruhi həyatında, davranışlarında böyük rol oynayır.

Yunqun nəzəriyyəsi daha əsaslı, daha fəlsəfi, daha əhatəlidir. Arxetiplər nəzəriyyəsinə əsasən ulu əcdadlarımızın dünya, insan, təbiət haqqında təsəvvürləri zaman keçdikcə dəyişir, yeniləri ilə əvəz olunur. Onda keçmiş təsəvvürlər itib getmir, yox olmur, insanların təhtəlşüuruna enərək orada əbədi olaraq qalır və irsən nəsildən-nəslə ötürülür. Bu nəzəriyyəyə əsasən insan şüur səviyyəsində, şəxsiyyət olaraq bir şey, təhtəlşüur səviyyəsində isə, bir növ olaraq başqa şeydir. Arxetip olaraq insanlar bir-birinə daha yaxındırlar, nəinki şəxsiyyət olaraq. Dostoyevski bunu hələ Yunqun təlimi yaranana qədər də gözəl dərk etmiş və öz əsərlərində göstərmişdir. Dostoyevski realizminin əsas prinsiplərindən biri olan "insanda insanı tapmaq" məhz bu deməkdir, yəni şəxsiyyətdə növü tapmaq, tipdə arxetipi tapmaq, avropalaşmış, ateist rus kosmopolitinin qəlbinin dərinliklərində milli rus xarakterini, pravoslav əxlaqını tapmaq deməkdir. Dostoyevskinin ikiləşmə nəzəriyyəsini də, onun oxşarlarını da bununla izah etmək olar: şüur səviyyəsində insan bir şeydir, təhtəlşüurda başqa şeydir. Dostoyevskinin fikrincə, ateizm şüurun məhsuludur, təhtəlşüurda isə insanlar bir qayda olaraq dindardırlar. Deməli, ateist də özündən xəbərsiz olaraq təhtəlşüurda dindar ola bilər. Buna misal olaraq L.Tolstoyun "Anna Karenina" romanının qəhrəmanı Levini göstərmək olar. Özünü ateist hesab edən bu insan birdən, arvadı Kiti ağır vəziyyətdə olanda, onun ölə biləcəyini gözləri önünə gətirərək Allaha yalvarmağa və dua etməyə başlayır. Bu məqamda qəhrəmanın ateist düşüncəsinə dindarlıq düşüncəsi kənardan gəlib düşmür, sadəcə olaraq, düşüncə və düşüncədəki ateizm əhvali-ruhiyyəsi bir növ susur, təhtəlşüurdakı inam, orada əbədi olaraq mövcud olan və babalardan irsən keçmiş iman əhvalı oyanır. İnsan yeni keyfiyyət kəsb etmir, sadəcə olaraq onun gizli və əsas mahiyyəti üzə çıxır. Bu cür psixoloji halların təsviri Dostoyevski poetikasının əsas qayəsini təşkil edir. Ona görə də biz belə hesab edirik ki, dərinlik psixologiyası, o cümlədən K.Yunqun arxetiplər nəzəriyyəsi bədii kəşf olaraq Dostoyevski tərəfindən qeyd edilmişdir.

Dostoyevskinin rus və dünya ədəbiyyatı nümayəndələrinə olan münasibəti barəsində çox danışmaq olar. Lakin biz bu məsələni yazıçının Şekspirə və Servantesə olan münasibəti ilə yekunlaşdırmaq istərdik. Şekspirdən söhbət düşəndə Lev Tostoyun ona olan ziddiyyətli münasibəti yada düşür. Tolstoy Şekspiri nəinki dahi yazıçı hesab etmirdi, ümumiyyətlə, onun dramaturq istedadına çox böyük şübhəylə yanaşırdı. Bu məsələyə Tolstoy "Şekspir və dram" adlı geniş bir məqalə də həsr etmişdir.

Dostoyevskinin Şekspirə münasibətinə gəlincə, rus yazıçısı onu çox yüksək dəyərləndirir, onun barəsində xüsusi olaraq yazmasa da, öz əsərlərinin bir çoxunda ona istinad edir, öz qəhrəmanlarını onun qəhrəmanlarına bənzədir və s. "Yeniyetmə" romanında Dostoyevski Versilovun dililə Şekspirin Otellosunun faciəsinin səbəbləri barədə çox orijinal bir fikir söyləyir: Versilov deyir ki, Otello Dezdemonanı, sonra da özünü ona görə öldürmür ki, qısqanır, ona görə öldürür ki, onun idealını əlindən almışdılar. Hələ Puşkin qeyd edirdi ki, Otellonun faciəsi qısqanclığın faciəsi deyil, etibarın faciəsidir. Otello Yaqonu "sədaqətli Yaqo" deyə çağırırdı. Otellonun Dezdemonaya münasibətinə gəlincə, bu başı müsibətlər çəkmiş və artıq yaşa dolmuş general həyatda daim bir şeyə arxalanmışdı - şəxsi gücə və qılınca. O, başqa həqiqət tanımırdı. Dezdemonanı sevdikdən sonra onun qəlbində məhəbbətə və ideala da yer tapıldı. O, Dezdemonanı ideal səviyyəsində gördü və birdən ona təsdiq etdilər ki, Dezdemona da bütün qadınlar kimi satqın və xəyanətkardır. Otello bunu Dezdemonaya bağışlamadı, ona görə ki, onu öz qəlbində ideal səviyyəsinə qaldırmışdı. Məhz öz idealını itirmək ona çox ağır gəldi. Lakin faciə baş verdikdən və Dezdemona qətlə yetirildikdən sonra Otello əsl həqiqəti və Dezdemonanın günahsız olduğunu öyrənir. Burada o, artıq necə hərəkət edəcəyini dərk edə bilmir və işgəncələr içində özünü məhv edir. Bu səhnəni Dostoyevski başqa bir yerdə "xəstə səhnə" adlandırır. Yəni qəhrəmanın artıq çıxış yolu qalmayanda, dərrakəli və məqsədyönlü bir hərəkətin mümkün olmadığı bir şəraitdə onun absurd hərəkətləri xəstə səhnə təəssüratı oyadır. Bu cür "xəstə səhnə"ni Dostoyevski Puşkinin "Yevgeni Onegin" əsərində də tapır: Oneginin gecikmiş məhəbbəti onu artıq ərdə olan Tatyananın hüzuruna gətirir və Onegin onun qarşısında diz çöküb yalvarır, amma özü də bilir ki, Tatyananın cavabı necə olacaq. Bu da "xəstə səhnə"dir.

Dostoyevskinin Servantesə və onun "Don Kixot" romanına olan münasibəti daha maraqlıdır. Dostoyevski yazır ki, əgər bir vaxt yer üzündə həyat qurtarsa və sonra yenidən yaransa və bu yeni insanlar soruşsalar ki, onlara qədər bu dünyada nələr baş verib, onda kifayətdir ki, onlara "Don Kixot" romanını verəsən və deyəsən: burda hər şey yazılıb, əgər bacarırsınızsa buna görə bizi ittiham edin. Dostoyevski öz sevimli qəhrəmanı Knyaz Mışkini ("İdiot") bir tərəfdən İsaya, digər tərəfdən isə Don Kixota bənzər yaratmışdı. Yəni bu romanı yazanda Dostoyevskinin qarşısında iki kamil insan obrazı dururdu, onlardan biri İsa Məsih, ikincisi Don Kixot idi. Hər ikisi də tərkidünya, hər ikisi də bu dünyanın həqiqətləri ilə yaşamayan, başqa bir dünyanın həqiqətlərinə tapınan insanlar idilər. Don Kixotun öz qəlbində gəzdirdiyi həqiqət, onun sonacan sadiq qaldığı, gözəllik və məhəbbət həqiqətləri idi. O, gülməli vəziyyətlərə düçar olur, amma öz Dulsineyasına olan inamını və məhəbbətini itirmir, onu reallığın əleyhinə olaraq sevir və ona pərəstiş edir. Nəhayət, onu inandıranda ki, nə Dulsineya vardır, nə də ali məhəbbət, adi, yeknəsəq bir reallıq vardır, onda Don Kixot sanki ecazkar röyadan ayılır, dünyanı necə varsa eləcə də görür və bu oyanışa dözə bilməyib həlak olur. İdeallar dünyasından reallıqlar dünyasına adlayış onun faciəsinə çevrilir. Əsl inam görmədiyin bir şeyə olan inamdır. Görüb əl vurduğun, dadını-duzunu hiss etdiyin şeyə inanmaq inam deyil, praqmatizmdir. İnsan nə praqmatikaya, nə də gözəgörünməz ideala sonacan qane ola bilmir. Dostoyevski qəhrəmanlarının çoxunun ziddiyyətləri məhz bundan ibarətdir. "Allah olmasaydı, onu uydurmaq lazım gələrdi" deyən Volterin də, vəfasız gözəlləri dünyalar qədər sevən və vəsf edən Füzulinin də ziddiyyətləri bundan ibarətdir. Ümumiyyətlə, əli göylərdə qalan, lakin ayaqları yerdən üzülməyən insan övladının ziddiyyətləri də bundan ibarətdir.

